AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 209 (1337) 12 noyabr - 14 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# QAX: KEÇMİŞLƏRDƏN YOL ALAN GƏLƏCƏYİN ŞƏHƏRİ





(əvvəli ötən saylarımızda)

**Cari ilin 9 ayı ərzində 1905 baş inək-düyə yüksək məhsuldar törədici toxumları ilə süni yolla mayalandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 461 baş çoxdur. Süni yolla mayalandırılmış heyvanlardan 956 baş bala alınmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 8,6 ton artaraq 2237,1 tona, süd istehsalı 32,9 ton artaraq 12050,3 tona, yumurta istehsalı 3 min ədəd artaraq 5 milyon 928 min ədədə çatmışdır. Ötən dövr ərzində 125,8 ton yun istehsal olunmuşdur.**

Mövcud mal-qaranın sağlamlığının qorunması, əhalinin sağlam və keyfiyyətli heyvandarlıq məhsulları ilə təmin olunması üçün epizootiya əleyhinə tədbirlərin plana uyğun icrası təmin olunmuş, hal-hazırda profilaktik və müalicə tədbirlərinin aparılması davam etdirilir.

### *Meliorasiya və irriqasiya tədbirləri*

Torpaqların su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işlərinin həyata keçirilməsi məqsədi ilə 312 min m3 həcmdə lildən təmizləmə, 557 m3 beton kanallarda və 11 ədəd hidropostlarda təmir işləri aparılmışdır. Sel sularından mühafizə tədbirləri zamanı 651 min m3 daşqın və selə qarşı məcratəmizləmə işləri aparılmış, 1144 m3 qabyon və 3981 m3 daş-beton bəndlərdə isə daşqın və selə qarşı sahilbərkitmə və təmir işləri aparılmışdır.

Hesabat dövründə "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2015-ci il tarixli 1628 nömrəli Sərəncamına uyğun olaraq rayonun Şotavar, Qıpçaq, Qum, Şıxlar, Almalı kəndlərində və Qax şəhərində yeni artezian və subartezian quyuları qazılmışdır.

Ötən müddət ərzində rayonun 13 yaşayış məntəqəsində Qorağan, Qaraməşə, Amanlı, Baydarlı, Qazmalar, Süskənd, Fıstıqlı, Turaclı, Çüdülü, Marsan, Lələli, Qındırğa və Qarabaldır kəndlərində modul tipli sutəmizləyici qurğuların quraşdırılması işləri başa çatdırılmışdır.

### *...Və digər sahələrdə qazanılan uğurlar*

Hesabat dövründə yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə bağlı büdcədə nəzərdə tutulmuş vəsait hesabına Zəyəm kəndinin əsas yolunun 0,7 km hissəsinə, Şotavar kəndinin isə giriş hissəsinə 1,8 km uzunluğunda yeni asfalt örtüyü salınmışdır. Şəhərin Ü.Hacıbəyov küçəsinin bir hissəsində abadlıq işləri görülmüş və yeni asfalt örtüyü salınmışdır. A.Məmmədov küçəsində abadlıq işlərinin görülməsinə və yeni asfalt örtüyünün salınmasına başlanılmış, S.Vurğun və İ.Dağıstanlı küçələrinin bir hissəsinə isə asfalt örtüyün salınması işləri davam etdirilmişdir.

Mənzil fondunun əsaslı təmiri üzrə büdcədə nəzərdə tutulmuş vəsait hesabına şəhərin S.Vurğun küçəsi 4,7 və 9 saylı kommunal yaşayış binalarının dam örtükləri və fasad hissələri təmir olunmuş, V.Eyvazov küçəsi 20 saylı kommunal yaşayış binasının isə dam örtüyü təmir olunmuşdur.

Rayon üzrə qeyri-məşğul əhalinin ödənişli ictimai faydalı əmək fəaliyyətinə cəlb edilməsi məqsədi ilə şəhərdə 18 ədəd kommunal yaşayış binasının fasad hissələrinin rənglənməsi və 3 ədəd kommunal yaşayış binasının isə dam örtüyünün əsaslı təmiri həyata keçirilmişdir.

Hesabat dövründə Qax rayon Dövlət Rəsm Qalereyasında və Zəyəm kənd körpələr evi-uşaq bağçasında təmir işləri aparılmış, Qaşqaçay kənd Mədəniyyət evinin dam örtüyü əsaslı təmir olunmuşdur. Zəyəm kənd xəstəxanasında, Almalı mədəniyyət evində Rayon Mərkəzi Xəstəxanasının həyətində və Rayon Poliklinika binasında hazırda təmir işləri aparılır.

> **"...Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Ötən müddət ərzində Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin, şəhərin giriş hissəsində Dövlət Bayrağı Meydanının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax rayon şöbəsinin inzibati binasının tikintisi işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 22 avqust 2016-cı il tarixli Sərəncamı ilə Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsindən 2,0 milyon manat vəsait ayrılmışdır. Hazırda yolun tikintisinin başa çatdırılması istiqamətində müvafiq işlər aparılır.

Kənd Təsərrüfatı Nazirliyinin Qax rayonu üzrə İdarəsinin inzibati binasının və şəhərin İ.Dağıstanlı küçəsindəki 180 yerlik uşaq bağçasının tikintisi başa çatdırılmış, şəhərin 28 May küçəsində 100 yerlik körpələr evi-uşaq bağçasının, Ağçay kəndində bir qruplu uşaq bağçasının, Qax şəhərində, Qaşqaçay və Əmbərçay kəndlərində Qarabağ müharibəsi əlillərinə inşa olunmuş fərdi yaşayış evlərinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Müddət ərzində rayonda 74 ədəd fərdi yaşayış evi və 12 ədəd sahibkarlıq obyekti olmaqla ümumilikdə 86 fərdi tikinti aparılmışdır.

**Kənd İnvestisiya layihəsi çərçivəsində cari ilin doqquz ayı ərzində rayonun Güllük kəndində içməli su xəttinin çəkilişi, Qaxingiloy kəndində kənddaxili yolların təmiri, Çüdüllü kəndində suvarma arxlarının təmiri, Tasmalı, Zəyəm və Ağyazı kəndlərində abadlıq işləri həyata keçirilmiş, İlisu kəndində isə tam orta məktəb binası təmir olunmuşdur.**

(ardı gələn sayımızda)

***Məzahir ƏHMƏDZADƏ***